**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MİQRASİYA XİDMƏTİNİN**

**Q Ə R A R I**

**16 noyabr 2016-cı il** **№ 19**

**Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin 2012-ci il 12 noyabr tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Kadrlar və kadr hazırlığı idarəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 mart tarixli 560 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti haqqında Əsasnamə"nin 16.7-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti

**Q Ə R A R A A L I R:**

1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin 2012-ci il 12 noyabr tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Kadrlar və kadr hazırlığı idarəsi haqqında Əsasnamə"nin 5.12-ci bəndində "Baş mütəxəssis" sözləri "Kiçik inspektor-kargüzar" sözləri ilə əvəz edilsin.

2. Qərar qəbul edildiyi gündən üç gün keçənədək Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunsun.

**Azərbaycan Respublikasının**
**Dövlət Miqrasiya Xidmətinin rəisi**

**II dərəcəli dövlət**
**miqrasiya xidməti müşaviri** **Firudin Nəbiyev**